**UOT101.1**

# XIX ƏSRDƏ AZƏRBAYCANDA MİLLİ ŞÜURUN FORMALAŞMASINDA MİRZƏ FƏTƏLİ AXUNDOVUN VƏ HƏSƏN BƏY ZƏRDABİNİN SOSİAL-SİYASİ İDEYALARININ ROLU

**Rafail Əhmədli**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,
fəlsəfə elmləri doktoru, professor
ehmedli.rafail@mail.ru
DOI:10.30546/ifs.2021.1(36).9

**Xülasə.** Məqalədə XIX əsrin əvvəllərində “Gülüstan” və “Türkmənçay” müqavilələri nəticəsində böyük bir xalqın və ölkənin ikiyə parçalandırılması nəticəsində Azərbaycanın taleyini çar Rusiyasının istədiyi kimi həll edib, zəngin tarixi və mədəniyyəti olan bir xalqı müstəmləkəsinə çevirməsi, xalqın dilini, dinini, etiqadını, adət-ənənələrini unutdurmağa çalışması araşdırılır.

M. F. Axundovun əsərlərində Azərbaycan cəmiyyətinin sosial-siyasi və mənəvi yüksəlişinə yeni istiqamət verməsi, milli şüurun formalaşmasına çalışması, azadlığa nail olmağın yollarını göstərməsi, zülmü aradan qaldırmaq üçün məzluma düzgün istiqamət verməklə onları hərəkətə gətirmək istəyi təhlıl olunur.

Eyni zamanda H. B. Zərdabinin yazılarında sosial ədalətsizliyə qarşı çıxması, insanların diqqətini mövcud cəmiyyətdəki qanunsuzluqlara yönəltməsi, nadanlıq buxovlarından azad olmağa səsləməsi, işıqlı ideyalar sahibi olan ziyalıları birləşdirməyə çalışması,milli və sosial-siyasi ideyalar sayəsində Azərbaycanda milli dirçəliş, milli şüur, siyasi müstəqillik və hətta dövlətçilik ideyaları formalaşdırmağa çalışması aydınlaşdırılır.

**Məqsəd:** XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda milli şüurun formalaşmasında və milli dövlətçilik ideyasının inkişafında Mirzə Fətəli Axundov və Həsən bəy Zərdabinin rolunu aydınlaşdırmaq.

**Metodologiya:** tarixilik və məntiqilik kontekstində təhlil.

**Elmi yenilik:** XIX əsrin ikinci yarısından başlayaraq Quzey Azərbaycanda Avropa və ənənəvi İslam dünyagörüşünün qarşılıqlı əlaqəsi tədqiq olunur. Bu əsrin ikinci yarısından milli şüurun formalaşmasında, yeni sosial-siyasi münasibətlərin yaradılmasında Mirzə Fətəli Axundov və Həsən bəy Zərdabinin fəaliyyəti araşdırılır.

**Açar sözlər:** XIX əsr, çar Rusiyası, din, sosial - siyasi, mənəvi, milli şüur, azadlıq, sosial ədalətsizlik, ideya, milli qurtuluş.

## РОЛЬ ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКИХ ИДЕЙ МИРЗЫ ФАТАЛИ АХУНДОВА И ГАСАН БЕКА ЗАРДАБИ В ФОРМИРОВАНИИ НАЦИОНАЛЬНОГО САМОСОЗНАНИЯ В АЗЕРБАЙДЖАНЕ В XIX ВЕКЕ

**Рафаиль Ахмедли**

**Резюме.** После заключения Гюлистанского и Туркманчайского договоров азербайджанская нация был разделен на две части. Северную часть царская Россия превратила в свою колонию, пытаясь заставить забыть родной язык, религиозные убеждения, традиции народа, имеющего богатейшую историю и культуру.

Анализируются в работах М.Ф. Ахундова новые направления социально-политического и нравственного развития азербайджанского общества, формирование национального

самосознания, пути достижения свободы, стремление мобилизации угнетенных, предоставления им верного направления для устранения этого угнетения.

В то же время, приводятся некоторые уточнения взглядам Гасан бека Зардаби, где он в своих сочинениях выступал против социальной несправедливости, привлечения внимания людей к беззаконию существующего общества, призывая к освобождению от оков невежества, попытался сформировать идеи объединения интеллектуалов с просвещенными взглядами, идеями национального возрождения, национального самосознания, политической независимости и даже государственности в Азербайджане.

**Цель:** выяснить роль Мирзы Фатали Ахундова и Гасан бека Зардаби в формировании национального самосознания и развитии идеи национальной государственности в Азербайджане в конце XIX - начале XX вв.

**Методология:** анализ в контексте историковедения и логичности.

**Научная новизна:** начиная со второй половины XIX века, в Северном Азербайджане изучается взаимодействие европейского и традиционного исламского мировоззрения, изучена деятельность Мирза Фатали Ахундова и Гасан бека Зардабы в области формирования национального самосознания и образования новых социально-политических отношения, начиная со второй половины XIX в.

**Ключевые слова:** XIX век, царская Россия, религия, социально-политическая, духовная, национальное сознание, свобода, социальная несправедливость, идея, национальное возрождение.

## THE ROLE OF SOCIOPOLITICAL IDEAS OF MIRZA FATALI AKHUNDOV AND HASAN BEY ZARDABI IN THE FORMATION OF NATIONAL IDENTITY IN AZERBAIJAN IN THE 19TH CENTURY

**Rafael Ahmadli**

**Abstract.** The article examines the processes taking place in Azerbaijan at the beginning of the 19th century, as a result of the Gulustan and Turkmenchay agreements, which divided the great nation into two parts, where Tsarist Russia turned the northern part into its colony of people with a rich history and culture, tried to make them forget their language, religious beliefs and traditions.

Analyzed in the works of M.F. Akhundova’s new directions in the socio-political and moral development of Azerbaijani society, the formation of national self-consciousness, outlined the ways to achieve freedom, the desire to mobilize the oppressed, providing them with the right direction to eliminate this oppression.

At the same time, some clarifications are given to the views of H.B. Zardabi, where in his writings he opposed social injustice, drawing people's attention to the lawlessness of existing society, calling for liberation from the shackles of ignorance, tried to form ideas about combining intellectuals with enlightened views, ideas national revival, national identity, political independence and even statehood in Azerbaijan.

**Purpose:** to clarify the role of Mirza Fatali Akhundov and Hasan bey Zardabi in the formation of national identity and the development of the idea of national statehood in Azerbaijan in the late 19th - early 20th centuries.

**Methodology:** analysis in the context of historical studies and logic.

**Scientific novelty:** since the second half of the 19th century, the interaction of the European and traditional Islamic worldviews has been studied in Northern Azerbaijan, the activities of Mirza Fatali Akhundov and Hasan bey Zardabi in the field of cultivating national identity and the formation of new socio-political relations since the second half of the same century have been studied.

**Keywords:** 19th century, Tsarist Russia, religion, socio-political, spiritual, national

consciousness, freedom, social injustice, idea, national revival.

**Giriş/Introduction**

XIX əsrin əvvəllərində "Gülüstan" və "Türkmənçay" müqavilələri nəticəsində böyük bir xalqın və ölkənin ikiyə parçalanması, onun bir hissəsinin zorla çar Rusiyası imperiyasının tərkibinə daxil edilməsi Azərbaycan xalqına vurulan ən sarsıdıcı zərbə idi. Quzey Azərbaycanın taleyini ona nə mənəvi, nə hüquqi və nə də siyasi haqqı olmayan çar Rusiyasının istədiyi kimi həll edib onun iqtisadi ehtiyatlarından, maddi sərvətlərindən öz malı kimi istifadə etməyə başlaması, əzəmətli tarixi və zəngin mədəniyyətə sahib olan bir xalqı və onun ayrı-ayrı xanlıqlara parçalanmasına baxmayaraq zəif də olsa dövlətçiliyini saxlayan dövlətini özünün müstəmləkəsinə çevrilməsi ilə nəticələndi. Çar Rusiyasının müstəmləkə siyasəti Azərbaycan xalqının dilini, dini və mənəvi etiqadını, adını və soyadını saxtalaşdırdı, adət-ənənələrini zorla unutdurmağa çalışdı, bütün bunlar tarixdə analoqu çox az olan və ya heç olmayan ədalətsizliklərdən biri idi.

XIX əsrin əvvəllərində Azərbaycanda maarifçilik, təhsil tənəzzül dövrünü yaşayırdı desək, yanılmarıq. Xalqın təhsili çox ağır vəziyyətdə idi, Quran və şəriətə aid biliklər mahiyyəti üzrə deyil, o dövrün siyasi durumuna müvafiq şəkildə təbliğ edilirdi. Məqsəd isə rus çarizminin Azərbaycan xalqını dinindən, dilindən, milli-mənəvi dəyərlərindən ayırmaq, onu assimilyasiyaya uğratmaq idi. Mövcud böhran vəziyyətindən çıxış yolunu Azərbaycan maarifçiləri xalqın maariflənməsində görürdülər.(7)

XIX əsrin ikinci yarısından başlayaraq Quzey Azərbaycanda Avropa və ənənəvi İslam dünyagörüşünün qarşılıqlı əlaqəsi və təsirinin genişlənməsi milli ziyalıların formalaşmasını sürətləndirmişdi. Əgər XIX əsrin 40-cı illərindən başlayaraq Avropa intellektual düşüncələri ötürücü rolu oynayaraq Azərbaycanda birinci nəslin formalaşmasında müəyyən rol oynamışdısa, əsrin ikinci yarısından başlayaraq millətin yüksəlişinə, onun milli şüurunun formalaşmasına can atan, yeni sosial-siyasi münasibətlərin yaradılmasına və qarşılıqlı olaraq köhnənin dağıdılmasına çalışan ikinci nəsil formalaşmışdı. Bizim maarifçilərimiz XIX əsrdən başlayaraq Azərbaycanın tarixi haqqında ümumi təsəvvür yaradıblar [11, 58]. Bu dövrdə formalaşan ikinci nəslin nümayəndələri arasında Mirzə Fətəli Axundov və Həsən bəy Zərdabi mühüm yer tuturdu.

**Axundzadə Mirzə Fətəli Məhəmmədtağı** oğlu (12.07.1812, Şəki – 10.03.1878, Tiflis) təkcə Quzey Azərbaycanda deyil, bütün Şərqdə milli-azadlıq ideyalarının ilk təbliğatçılarından olmuşdur. İlk təhsilini mollaxanada, daha sonra atalığı axund Hacı Ələskərdən, gəncəli Molla Hüseyn Pişnamazzadədən və dövrün mütərəqqi ziyalılarından olan şair Mirzə Şəfi Vazehdən xüsusi dərs alan Mirzə Fətəli sonralar Qafqaz Canişinliyi Baş İdarəsinin Dəftərxanasında mülkü işlər üzrə baş tərcüməçi köməkçisi, 1858-ci ildən isə həmin idarənin tərcüməçisi təyin edilmişdi. O, dövlət işləri ilə yanaşı ədəbi-bədii yaradıcılıqla da məşğul olmuş, 1850-1855-ci illər arasında 6 komediya əsəri yazaraq Azərbaycan dramaturgiyasının əsasını qoymuş, 1857-ci ildə "Aldanmış kəvakib" əsərini yazmışdır.

Mütəfəkkir əsas ideyalarını "Kəmalüddövlə məktubları" adlı traktatında irəli sürmüşdür. O, məktublarının birində göstərirdi: "Mənim məqsədim İslam xalqlarını sarsıdan cəhaləti aradan qaldırmaq, elmləri öyrətmək, xalqımızın azadlığı, rifahı və sərvətinin artması üçün islamiyyətdən əvvəl babalarımızın malik olduğu şan və şöhrətin bərpa edilməsi üçün ədalətə rəvac verməkdir".

Məqsədinə nail olmaqda daha çox milli şüurun formalaşmasında sosial-siyasi ideyalara və maarifçiliyə üstünlük verən filosof cəmiyyəti dəyişmək, yeni bir dünya yaratmaq məsələsində mütərəqqi ideyaların təbliğini əsas şərt hesab edirdi. Bu işdə müsəlman xalqların o dövrdə inkişafı üçün ərəb əlifbasının dəyişdirilməsini başlanğıc hesab edən mütəfəkkir göstərirdi ki, bütün işlərin əsası elmdir, bilikdir. Bilik isə, ilk növbədə, əlifbanın asan olmasından ibarətdir. O, əlifbanın dəyişdirilməsinə din bayrağı altında xalqların dövlətçilik ənənələrini dağıdan, mədəniyyətini məhv edən ərəb istilasının təzahürü hesab etdiyi mənəvi əsarətdən xilas olmaq vasitəsi kimi baxırdı. O, Azərbaycanın minillik səltənətinin dağıdılmasından, ölkənin xarabazara çevrilməsindən, xüsusilə ərəb

istilaçılarının öz əlifbasını zorla qəbul etdirdiklərindən bəhs edərək, baş verən sosial-siyasi müsibətləri də ərəb əlifbası ilə bağlayırdı.

Mirzə Fətəli Axundov öz əsərləri ilə Azərbaycan cəmiyyətinin sosial-siyasi və mənəvi yüksəlişinə yeni istiqamət vermiş, milli özünüdərketmə şüurunun formalaşmasına çalışıb, azadlığa nail olmağın yollarını göstərərək qeyd etmişdi ki, zülmü aradan qaldırmaq üçün heç də zalıma müraciət etmək lazım deyil, əksinə məzluma demək lazımdır ki, bəs nə üçün zülmə qatlaşırsan? İnsanların damarlarına təzə və isti qan dağıtmaq və onları hərəkətə gətirmək lazımdır. Göz qabağında olan bu əsas mühit kökündən, dibindən qoparılmalıdır. Ədib Azərbaycan xalqının azadlığa çıxacağına, yadellilərin ölkədən qovulacağına, yaxın gələcəkdə Vətənimizin yadların ardınca gedənlərin mənhus vücudundan təmizlənəcəyinə, yurdumuzun yenidən gülüstana çevriləcəyinə inanırdı. İslam dininin sosial-siyasi ölçülərlə islahatı ideyasını irəli sürən mütəfəkkir göstərirdi ki, indiki dövrün və mədəniyyətin tələblərindən göründüyü kimi, islamçılığın bəşəriyyətdə hər iki cinsin – qadın və kişilərin azadlığı və bərabərliyini müəyyən edən, Şərq despotizmini müdrik siyasi müəssisələrlə mülayimləşdirən islahata və sivilləşməyə ehtiyacı vardır.

Mirzə Fətəli Axundov “KəmalüdDövlə məktubları” adlı fəlsəfi traktatında (1863-1865) mövcud quruluşları pisləyərək Yaxın Şərqin ali feodal hökmdarlarına öz ölkələrinin dövlət sistemində kökündən yenidənqurma aparmağı və konstitusiyalı monarxiya qurmağı tələb edirdi. O yazırdı: “Dövlət quruluşu İngiltərə dövlətçiliyini özündə əks etdirən başlanğıca əsaslanmalıdır, yəni konstitusiyalı dövlət quruluşu olmalıdır, qanuni əsaslarda olmalıdır. Yalnız o halda dövlət quruluşu uzun müddət mövcud ola bilər və xalq tam qəlbi ilə ona can atar ki, padşahın hakimiyyəti möhkəm olsun” [8, 7].

Feodal quruluşunun yenidən qurulması, Yaxın Şərqdə onların sosial-siyasi, iqtisadi və mədəni inkişafına səbəb olan və xalqın geniş təbəqələrinin ən mühüm maraqlarına cavab verən yeni dövlət quruluşunun yaradılması da Mirzə Fətəlinin maraq dairəsində olmuşdur. İlk əvvəllər konstitusiyalı monarxiya tərəfdarı olan Axundov uzun düşüncələrdən və Qərbi Avropanın inqilabi hərəkat tarixi ilə yaxından tanış olduqdan sonra XIX əsrin 70-ci illərində belə bir nəticəyə gəlir ki, mövcud quruluşu kökündən sülh yolu ilə dəyişmək mümkün deyil. Ona görə də onu yalnız xalq kütlələrinin silahlı üsyanı yolu ilə devirmək mümkündür. Bununla da Mirzə Fətəli Axundov xalqı feodal quruluşuna qarşı silahlı mübarizəyə və demokratik respublika qurmağa səsləməklə Azərbaycanda və Yaxın Şərq ölkələrində inqilabi-demokratik ideologiyanın əsasını qoymuşdur. Bu konsepsiya onun “Yek kəlmənin tənqidi” adlı məqaləsində (1875) də öz ifadəsini tapmışdır [3, 7].

Bəllidir ki, din və sosial-siyasətin qarşılıqlı əlaqəsi və təsiri problemi müxtəlif dövr mütəfəkkirlərinin diqqətini cəlb etmiş və dövrün tələbləri baxımından şərh edilmişdir. Bu bir həqiqətdir ki, tarixdə din amili bəzən siyasətdə aparıcı rol oynamışdır. Din hətta bəzən ideologiyaya çevrilərək sosial-siyasi həyatda aparıcı rol oynamışdır. Tədqiqatçılar göstərirlər ki, din bəzən ideologiyaya çevrilərək siyasətdə aparıcı rol oynasa da, o siyasətdə müstəqil sosial-siyasi subyekt kimi deyil, siyasətin formalaşmasında iştirak edən şəxslərin dünyagörüşü vasitəsilə təsir göstərə bilər [6, 35].

Deməli, din siyasətdə müəyyən dövrlərdə bu və ya digər dərəcədə mühüm rol oynamasına baxmayaraq daim qalıcı ola bilməz. Ona görə də dövlətlə bağlı istənilən təlim qanunauyğun olaraq öz dövrünün sosial-siyasi ideyaları və hüquqi gerçəkliyi nəzərə alınmaqla qurulur. Azərbaycanda dinə söykənən sosial-siyasi hakimiyyətin təsis edilməsinə neqativ baxış Mirzə Fətəli Axundovun adı ilə bağlıdır.

Mirzə Fətəli Axundovun sosial-siyasi təlimi öz dərinliyi və çoxcəhətliliyinə görə onun sələflərinin ideya və görüşlərindən əsaslı surətdə seçilir. Onun yaradıcılığının şah əsəri olan – Hindistan şahzadəsi Kamalüddövlənin öz dostu İran şahzadəsi Cəlalüddövləyə yazdığı üç məktubu və Cəlalüddövlənin ona göndərdiyi cavab adlı sosial-siyasi və fəlsəfi traktatı feodal quruluşunun, qanunsuzluğun, özbaşınalığın, xüsusilə dinin ifşasına, ateizmin və inqilabi-demokratik ideyaların təbliğinə həsr olunmuşdur. Bu əsərində mütəfəkkir feodalizm quruluşunu zorakı yolla devirmək ideyasını irəli sürmüş, xalqı inqilab etməyə çağırmış, xalq hakimiyyəti ideyası ilə çıxış etmişdir.

Filosof "Kamalüddövlə məktubları" əsərində özünün sosial-siyasi, fəlsəfi və hüquqi görünüşlərini geniş şəkildə şərh etmiş, bir sıra sosial problemlərə siyasi münasibətini bildirmiş, siyasi idealını, cəmiyyətin dəyişdirilməsi proqramını irəli sürmüşdür. Mütəfəkkir bu əsərində mövcud quruluşa qarşı özünün inqilabi mübarizə yolunu da açıq şəkildə büruzə vermişdir.

Müəllif bu əsərində olduğu kimi, "Yek kəlmə haqqında", "Həkimi-ingilis Yuma cavab", "Babilik əqidələri", "İnsan tələbatları haqqında" adlı məqalələrində də ictimai-siyasi hadisələri qiymətləndirmiş, sosial-siyasi problemlərin həllində inqilabi-demokrat kimi çıxış etmiş, yeni, ədalətli cəmiyyətin yaradılmasının inqilabi-demokratik proqramını irəli sürmüş, xalq hakimiyyəti yaradılmasına çağırış etmişdir.

Zəhmətkeş kütlələrin arzu və istəklərini ifadə edən Axundov daim yeni cəmiyyət uğrunda mübarizə aparmış, dövlət və onun mahiyyəti haqqında məsələ filosofun diqqət mərkəzində olmuş, xalqın rifahının təmin edilməsi üçün ölkədə sənaye, iqtisadiyyat, elm, mədəniyyətin tərəqqisini vacib saymışdır. O, dövlət və onun idarə olunması məsələlərini "siyasət" adlandırdığı xüsusi elm sahəsinə aid edirdi.

Mütəfəkkir müstəbid monarxiya dövlətinin mahiyyətini, rolunu qiymətləndirərkən dövlət və xalq arasındakı antoqonizmi, feodal dövlətin zidd mahiyyətini şərh etmiş, dövlət və xalq ilişgələrində dövlətə və onun məmurlarına xalqın zülmkarları kimi baxirdı. Onun fikrincə, müstəbid hakimiyyətin vətəndaşların həyatına və əmlakına qeyri-məhdud surətdə qəsd etmək hüququ xalqa qarşı zorakılıq və özbaşınalıq etmək deməkdir. O, əsərlərində feodal dövlət quruluşunu tənqid etmiş, ədalətli monarxı müstəbidə, ağıllı hakimiyyəti istibdad hakimiyyətinə qarşı qoymuş, müstəbidin bütün eyiblərini aşkara çıxarmış, rüşvətxorluqla, süründürməçiliklə, mənsəbpərəstliklə dolu olan feodal idarə sisteminin çürüklüyünü elmi şəkildə üzə çıxarmışdı. Feodal məhkəmə sistemində hökm sürən biabırçı qanunsuzluq və özbaşınalıqların üstündən sükutla keçməyən filosof göstərirdi ki, feodal məhkəmə üsulunda mövcud olan hərc-mərclik xalqın ədalət mühakiməsinə etibar etməməsinə səbəb olur, zərər çəkən hansı hakimiyyət orqanına müraciət edəcəyini bilmir: bəziləri şikayətlə pristavın, digərləri polismeysterin, üçüncülər mollanın, dördüncülər isə şahzadənin yanına gedir. Cəza tədbirləri qanunlarla deyil, həmin şəxslərin arzularından və cinayət törədənin sosial-siyasi və ictimai mövqeyindən asılı olur.

Axundov həyatının müxtəlif dövrlərində ayrı-ayrı əsər və məqalələrində müxtəlif dövlət formaları irəli sürmüş, mütləqiyyət ideyasını xalq hakimiyyəti ideyasına qədər inkişaf etdirmişdir. O, irəli sürdüyü bütün dövlət formalarında həmişə xalq kütlələrinin mənafeyini müdafiə etmiş, xalq üçün azad, sosial bir cəmiyyət yaratmağa səsləmişdir. "Mən xalqı sevən, canımı bu yolda qurban verməyə hazır olan adamam" deyən mütəfəkkir göstərir ki, mənim məqsədim İslam xalqlarını sarsıdan cəhaləti ortadan qaldırmaq, elmləri, sənətləri inkişaf etdirmək, xalqımızın azadlığı, rifahı və sərvətinin artması üçün vətənin abadlaşdırılması üçün ədalətə rəvac verməkdir.

Mirzə Fətəli zülmün məhv edilməsinin iki yolunu göstərmiş və qeyd etmişdir ki, bunun üçün ya zülmkar öz zülmünü dayandırmalı, ya da məzlum zülmə dözməyərək öz ağlına əsaslanıb onu məhv etməlidir. Bu iki yoldan başqa yol yoxdur. Lakin həyat göstərir ki, məsləhətlə zülmü aradan qaldırmaq, onu məhv etmək mümkün deyil. Deməli, zülmü aradan qaldırmaq üçün zülmkara nəsihət vermək lazım deyil, məzluma demək lazımdır ki, sən say, bacarıq və güc cəhətdən zalımdan qat-qat artıqsan. Bəs nə üçün zalımın zülmünə qatlanırsan? Qəflət yuxusundan oyan və zalımın atasının goruna od vur! Müəllif "Kəmalüddövlə məktubları" traktatında feodal cəmiyyətinin dəyişdirilməsinin proqramını cızaraq belə bir nəticəyə gəlir ki, cəmiyyətin kökündən dəyişdirilməsi üçün yalnız inqilab lazımdır. Öyüd, nəsihət zülmkara heç bir təsir göstərməz.

Mütəfəkkir cinayət və cəza, cinayətkarlığın səbəbləri, cinayətkarlığın qarşısının alınması və onunla mübarizə tədbirləri haqqında məsələləri şərh edərkən sosial-siyasi səbəbləri, əsasən, xalqın maddi cəhətdən təmin olunmamasında, yoxsulluqda, dilənçilikdə görür və bunları cinayətkarlığın əsas səbəbi kimi irəli sürürdü. Müəllif həmçinin təhsilin və əxlaqın olmamasını da cinayətkarlığın digər səbəbləri kimi qeyd edir və bütün bunları doğuran səbəbləri feodal cəmiyyətində görürdü. O, "Müsyö Jordan və dərviş Məstəli şah" pyesində insanın oğurluğa və quldurluğa aclıq və ehtiyac

üzündən getdiyini, “Hacı Qara” pyesində müflisləşmiş mülkədar Heydər bəyin yoxsulluqdan qaçaq mal alverinə baş vurmasını. “Xırs quldurbasan”da Bayramın yoxsulluq nəticəsində quldurluqla məşğul olduğunu, “Yek kəlmə haqqında” adlı məqaləsində oğrunun yaşamaq üçün vəsait əldə etməyə qabil olmadığına görə oğurluq etdiyini göstərmiş və bütün bunların səbəbini məhz mövcud quruluşda görmüşdü.

Axundov Qacarlar dövlətinin o dövrdəki maarif nazirinə göndərdiyi məktubda ərəb əlifbasında islahat keçirilməsinin zəruriliyini sübut edərək göstərirdi ki, bütün cinayətkarlıqların səbəbi adamların savadsızlığındadır. Oğrular, yolkəsənlər, qatillər həmişə avam, nadan camaat içərisindən çıxmış və çıxmaqdadır. Bütün dünyada alim, arif və mütəfəkkir insanlar içərisindən çıxmış bir oğru və ya qatilə təsadüf edilmişmi? Əlbəttə xeyir!

“Cəza, cinayətin qarşılığı kimi, sosial ədalətə əsaslanmalıdır” – deyən mütəfəkkir göstərir ki, cəza edilən cinayətə uyğun verilməlidir. O amansız, qəddar və rəhmsiz olmamalıdır. Şaqqalama, gözçıxarma, edametmə, bədəni şikəstetmə biabırçı və etibarsız tədbirdir. Qəddar cəza şəxsiyyətin tapdalanmasına, onun insani ləyaqətinin məhvinə səbəb olur. Unudulmamalıdır ki, dünyada heç bir nemət həyatın əvəzi ola bilməz. Bəzi cəzalar şəxsi təkrar cinayət etməyə sövq edir. Məsələn, əlinin kəsilməsi kimi cəza almış oğru yaşamaq üçün nemət qazanmaq qabiliyyətini itirir, ona görə də yenidən oğurluq etməyə məcbur olur və ya acından ölür.

Beləliklə, Axundov yaşadığı cəmiyyətin bütün eybəcərliklərini tənqid etməklə, öz sosial-siyasi ideyaları ilə xalqın milli şüurunun formalaşmasında əvəzsiz xidmətlər göstərmiş, özündən sonrakı Azərbaycan milli ziyalılarının mayakına çevrilmişdir.

Mirzə Fətəli Axundovun ardıcıllarından biri və birincisi məhz Moskva Dövlət Universitetinin məzunu **Həsən bəy Məlikov Zərdabi** (1837-1907) olmuşdur. O, XIX əsrin sonu - XX əsrin əvvəllərində Azərbaycanda sosial-siyasi fikrin inkişafında və milli şüurun formalaşmasında mühüm rol oynamışdır. İlk Azərbaycan Türk dilində olan “ Əkinçi” qəzetinin banisi, görkəmli alim Həsən bəy Zərdabi müstəmləkəçiliyə qarşı çıxmış, milli şüurun formalaşmasında dilin əhəmiyyətini vacib hesab edərək söz və fikir azadlığına yüksək dəyər vermiş, bürokratiyanı və rüşvətxorluğu pisləmişdi. Zərdabinin yaradıcılığının detallı təhlili zamanı burada Maarifçilik və modernin güclü tərəflərini görmək mümkündür. XIX əsrin maarifçilərinin əsərlərinin təhlili göstərir ki, onlar təkcə Maarifçilik fəlsəfəsini deyil, həm də müasir Azərbaycan fəlsəfəsi üçün fəlsəfi-etik baza yaratmışlar[12, 34].

Həsən bəy Zərdabi istər Bakı Realnı gimnaziyasında müəllim işləyəndə, istər “Əkinçi” qəzetini nəşr edəndə, istər “Kaspi” qəzetinin redaktoru vəzifəsində işləyəndə və digər qəzetlərdə əməkdaşlıq edəndə, istərsə də 1897-ci ildə qlasnı (şəhər Duması üzvü – R.Ə.) seçildiyi Bakı şəhər Dumasında ömrünün sonuna kimi ictimai vəzifə yerinə yetirərkən də həmişə sosial-siyasi və demokratik ideyaları təbliğ və müdafiə etmişdi. Onun sosial-siyasi, azadlıqsevər və demokratik ideyalarla aşılanmış əsərləri mənsub olduğu xalqın arasında millimənlik şüurunun formalaşmasında mühüm rol oynamış, xalqı işıqlı gələcək uğrunda mübarizəyə səsləmişdi. Zərdabiyə görə, cəmiyyət insanların toplaşdığı yerdir. Bu yeri savadlı insanlarla doldurmaq lazımdır, onları qanunlardan və öz hüquqlarından istifadə etməyə məcbur etmək gərəkdir.[12, 47].

Zərdabinin bir çox sosial-siyasi ideyaları Mirzə Fətəli Axundovun görüşləri ilə səsləşir. O da Axundov kimi cəmiyyətin aşağıdan yuxarıya doğru mütərəqqi inkişafını müdafiə etmiş, bu inkişafın fasiləsizliyini sübut etməyə çalışmış, keçmiş patriarxal qaydaların nə qədər yaxşı və ya pis olursa olsun, onları geri qaytarmağın mümkün olmadığını göstərmişdi. Çünki həyat durmadan irəliyə doğru hərəkətdədir. Mövcud həyatı onun müxtəlif ehtiyacları ilə əvvəlki patriarxal formalara yerləşdirmək olmaz. Həmin formalar keçmiş sakit həyat üçün nə qədər yaxşı olsa da, şiddətli qaynama halında olan hazırkı həyat üçün bir o qədər yararsızdır [8, 201].

Zərdabi öz yazılarında sosial ədalətsizliyə qarşı çıxaraq insanların diqqətini mövcud cəmiyyətdəki qanunsuzluqlara yönəldir, bu vəziyyətə qarşı onları “üsyana” səsləyir və göstərirdi ki, zülmə qatlaşmağın və səbirlə dözməyin nəticəsində əsrlərlə bizi əzmişlər və öz zalımlarımızın üzünə qul kimi baxmağa məcbur etmişlər. İndi biz insanlıq dərəcəsinə qalxmaq, nadanlıq buxovlarından azad olmaq istəyiriksə, gözümüzdən qara pərdəni atmalı, öz bəşəri hüquqlarımızı başa düşməli və

zülmə qarşı çıxmalı, işıqlı ideyalar sahibi olan ziyalılarımızı birləşdirməliyik.

Mütəfəkkir sosial-siyasi bəlaların səbəblərindən biri kimi xarici kapitalistləri görür və qəzəb hissi ilə xalqa çatdırırdı ki, xaricilər təbii sərvətlərimizi müftə talayıb aparmaqla kifayətlənməyib xalqımıza həqarətlə baxırlar. Bizi tam dəyərli adam hesab etmirlər. Karxanalar (fabrik, zavodlar – R.Ə.) hamısı xaricilərin əlində, sənət də onlarda, alış-veriş də onlardadır, hətta bədbəxt müsəlman fəhlələrinə də xaricilərə verilən məbləğin yarısını verirlər.

Zərdabinin şah əsəri olan "Əkinçi" qəzeti o dövrdə baş verən bütün ictimai və sosial-siyasi hadisələrin canlı salnaməsi idi. Çar üsul-idarəsinin tənqidi, sosial-siyasi münaqişələr, milli oyanış, azad söz, cəhalətə qarşı mübarizə, qadın azadlığı məsələsi, əxlaqi, fəlsəfi, sosial-siyasi ideyalar mütəfəkkirin yaradıcılığının əsas qayəsini təşkil edirdi.

Zərdabi gəncləri təqiblərdən, hədələrdən qorxmamağa, öz millətinə axıra qədər xidmət etməyə çağırır, onlara müraciət edərək deyirdi ki, ey elm, təhsil edən cavanlarımız! Doğrudur, bizim Vətən qardaşlarımızla ünsiyyət etmək çətindir. Siz danışdığınızı onlar başa düşməyib əhvalınızı şəriətə namüvafiq (uyğun olmayan – R.Ə.) hesab edib, sizə "kafir" deyib incidəcəklər. Amma insaf deyil, milləti atıb onları kor və sərgərdan qoyasınız. Qoy mollalar sizə lənət oxusun, avamlar sizi daşa bassın, siz millət üçün zəhmət çəkərsiniz və millət gözü açılanda sizi şəhid hesab edib rəhmət oxuyacaq [3, № 11].

İnsan əxlaqının ən mühüm növlərindən biri olan vətənpərvərlik hissini vicdan məfhumundan ayrı təsəvvür etməyən mütəfəkkir göstərirdi ki, vicdandan və ağıldan məhrum olan insanlar həqiqi insan sayılmadığı kimi, vətənpərvərlik hissindən məhrum olanları da insan saymaq olmaz. Əsl vətənpərvər üçün öz Vətənini, öz xalqının azad və xoşbəxtliyini arzu etmək kifayət deyil. Bu arzunu həyata keçirmək uğrunda əməli iş görməlidir.

Zərdabinin əsas qayəsi xalqın düşüncəsinə təsir etmək, onu gerilik və cəhalətdən qurtarmaq, millətin milli şüurunun inkişafına nail olmaq idi. Mütəfəkkir qəzet vasitəsilə sosial-siyasi məsələləri işıqlandırmaq, xalqın gözünü açmaq, onu cəhalət və avamlıq yuxusundan ayıltmaq, köhnə cəmiyyətin çürüklüyünü xalqa göstərmək, onu öz insani hüquqları uğrunda mübarizəyə şövq etdirmək, bir sözlə, sosial-siyasi ideyaları ilə xalqın milli şüurunu formalaşdırmaq idi.

"İstəyirsinizmi türk milləti yaşasın, qabağa getsin, elmi və mərifəti olsun, mədəniyyəti olsun? Ona dil verin. Türklər öz dillərini itiriblər, sizin sözünüzü onlar anlamırlar. Onların dilini tapın, verin onlar yaşasın, qabağa getsin!" – deyən mütəfəkkir bütün mənalı həyatını mənsub olduğu xalqın yüksəlişinə həsr etmiş, Azərbaycan türklərinin tarixinə Universiteti namizədlik diplomu ilə bitirən ilk müsəlman məzun, Azərbaycanın ilk Universitet təhsilli alim və müəllimi, İslam dünyasının ilk təbiətşünas alimi, təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində İslam Xeyriyyəçilik Hərəkatının banisi, 1873-cü ildə şagirdləri ilə birlikdə Bakıda Azərbaycan türk dilində ilk teatr tamaşası göstərən mədəniyyət xadimi, Azərbaycan mətbuatının banisi, Azərbaycanda ilk qızlar Gimnaziyasının açılmasının təşəbbüskarı, Azərbaycan Müəllimlərinin Birinci Qurultayının təşkilatçısı və Qurultayın sədri (1906), görkəmli ictimai xadim və fədakar bir ziyalı kimi daxil olmuşdur.

"Öz xalqına sədaqətlə xidmət etmək, xalqı maarifləndirmək, azadlıq hərəkatını canlandırmaq naminə yaşadığı dövrün bütün eybəcərliklərini, haqsızlıqlarını, xalqın zəhmətkeş təbəqələrini əzən, onları zülm altında inlədən feodal qəddarlarını çəkinmədən yazılarında ifşa edən Həsən bəy Zərdabi zəngin ədəbi irsi və fəaliyyəti ilə Azərbaycan mədəniyyəti tarixinə yaddaşlardan silinməyən izlər qoyub getmiş böyük tarixi və ədəbi şəxsiyyətdir" [1, 9].

Maarifin, maarifçilik hərəkatının xalqın yüksəlişində nə qədər önəmli olduğunu bilən böyük mütəfəkkir maarifçilik fəaliyyətini bir an belə kənara qoymamışdı. Görkəmli alim, akademik İsa Həbibbəylinin qeyd etdiyi kimi, "Azərbaycan Maarifçilik hərəkatı çoxəsrlik siyasi-ideoloji və ədəbi-fəlsəfi təlimlər üzərində formalaşaraq yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Fikrimizcə, Azərbaycanın tarixi taleyində olduğu kimi, yeni dövr və müstəqillik dövrü inkişafında da klassik Maarifçilik hərəkatı dalğasının böyük hərəkətverici rolu olmuşdur. Çünki XIX-XX əsrlərin meydana çıxardığı bütün axınların və cərəyanların içərisində ən uzun ömürlüsü olan Maarifçilik hərəkatı

xalqımızın zamandan-zamana inkişafında davamlı rol oynamış, hər tarixi mərhələnin müasirləşmə və yeniləşmə proseslərində həlledici əhəmiyyətə malik olması ilə səciyyələnmişdir. "(4, 12-13).

Daim mənsub olduğu xalqın sosial həyatını düşünən mütəfəkkir həmişə əzilən və istismar olunan kütlələrin tərəfində olmuş, yazılarında kəndlilərin ağır şəraitini, onların yarıac, yarıtox dolanmalarını oxucuların nəzərinə çatdırmış, "Kənd mirzələrindən xilas olmalıyız" adlı məqaləsində möhtəkirlərin törətdikləri cinayətləri, onların tüfeyli həyatını kəskin tənqid etmişdir.

Yoxsulların mənafeyini qətiyyətlə müdafiə edən Zərdabi öz əsərlərində xalqı hakim siniflərə qarşı qoyaraq onların ağır həyatını ürək yanğısı ilə təsvir edir, ictimai mərhələdə siniflərin yerini və rolunu aşkar edərək göstərirdi ki, idarə sisteminin dəyişilməsinə baxmayaraq, əvvəllər öz malikanələrinin kiçik hökmdarları hesab olunan bəylər indi də xalq üzərində öz hakimiyyətlərini itirməmişlər.

Zərdabi ruhanilərin bəylərin və xanların kəndlilərə qarşı çevrilmiş sinfi ittifaqını ifşa edərək göstərirdi ki, bu iki qüvvə əl-ələ verib elə qüvvəni təmsil edirlər ki, bu qüvvəyə qarşı mübarizə qəti olaraq qeyri-mümkün görünür. Xalqın cəhalətdə qalmasından istifadə edən bəy və şeyxlər onu istismar edirlər [8, 106].

Mütəfəkkir şəhər və kəndin istismarçılarını tənqid edərək istismarın öz formalarını dəyişdiyini, avam kütlənin istismar edilməsi hallarının gündən-günə daha tez-tez və daha müxtəlif olduğunu göstərirdi. Zərdabi kəndlilərin aztorpaqlı və torpaqsız olması hesabına bəylərin əlində böyük torpaq sahələrinin toplanmasını böyük sosial ədalətsizlik kimi qeyd edirdi. Təhkimçilik hüququnun ləğv edilməsini düzgün qiymətləndirən müəllif kəndlilərin bəylərin ağalığından azad edilməsinin kəndlilərə heç nə vermədiyini və formal xarakter daşıdığını görürdü. Asılılıq başqa forma kəsb etdi, o, bəylərin əlindən qolçomaqların əlinə keçdi. Öz bəylərindən asılı olmağa adət etmiş xalq ancaq kağız üzərində azad olmuş, əslində isə onlarla sərt rəftar edən istismarçıların tam asılılığına düşmüşdür [8, 50, 64-65].

Zərdabini daha cox xalqın vəziyyəti narahat edirdi, o iqtisadiyyatın, kənd təsərrüfatının, sənayenin yenidən təşkili, neft sənayesinin inkişafı üçün maraqlı təkliflər irəli sürürdü. Onun məqalələrində böyük yeri yerli əhalinin xarici kapitaldan asılılığının tənqidi tuturdu. Onu həm də əsas maddi nemətlər istehsal edən kəndlilərin vəziyyəti, özünüidarə problemləri, məhkəmə islahatları narahat edirdi [10, 55].

Neft sənayesinin coşqun inkişafını ölkənin həyatında müsbət amil kimi qiymətləndirən mütəfəkkir həm də göstərirdi ki, iqtisadiyyatın inkişafı heç də zəhmətkeşlərin vəziyyətini yüngülləşdirməmiş, əksinə, fəhlələr xüsusi zümrəni təmsil etməyərək sahibkarların özbaşınalığından bilavasitə son dərəcə asılı vəziyyətə düşmüşlər [8, 298].

Kəndlilərin ideoloqu olan Zərdabinin geniş ictimai fəaliyyəti və sosial-siyasi ideyaları Azərbaycan xalqının milli şüurunun oyanması və formalaşmasında mühüm rol oynamışdı.

H.B.Zərdabinin təbliğ etdiyi milli və sosial-siyasi ideyalar sayəsində Azərbaycanda milli dirçəliş, milli şüur, siyasi müstəqillik və hətta dövlətçilik ideyaları formalaşmağa başlamışdı ki, onun və digər Azərbaycan ziyalılarının sosial-siyasi və milli ideyaları nəticəsində, nəhayət, 1918-ci ilin may ayında Azərbaycan Xalq Cümhuriyyəti qurulmuşdu. Zərdabi başda olmaqla digər Azərbaycan milli ziyalıları sayəsində XIX əsrin sonları - XX əsrin əvvəllərində Quzey və Güney Azərbaycanda türklər arasında milli və siyasi proseslər dərinləşmiş, bir sıra milli cərəyan, müxtəlif təşkilat, partiya və hərəkatlar yaranmışdı.

**İstifadə olunmuş ədəbiyyat/References**

1.Abdullayev A. (tərtibçi) Azərbaycan maarifinin yorulmaz carçısı Həsən bəy Zərdabi – 170. Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, mərkəzləşdirilmiş kitabxana sistemləri üçün metodik vəsait. Bakı,2012.

2. Əkinçi. 1876, № 11.

3.İbrahimova X.S. Azərbaycan xalqının fəlsəfi-siyasi fikrində siyasətin optimallığı problemi. Bakı Universitetinin Xəbərləri, № 2, Sosial-siyasi elmlər seriyası, 2012.

4.Həbibbəyli İ. . Maarifçilik hərəkatının işığında. 525-ci qəzet.- 2019.- 24 aprel.

5. Xayala443@hotmail.com.

6. Xəlilov S. Fəlsəfədən siyasətə. Bakı: Azərbaycan Universiteti, 1998.

7.Rüstəmova A. Maarifçilik fəlsəfəsi tarixilik və müasirlik kontekstində (Modern "Həsən bəy Zərdabinin maarifçilik ideyaları və maarifçilik fəlsəfəsi" əsəri haqqında). "Respublika" qəzeti, 2 mart 2016.

8.Akhundov M.F. Izbranniye proizvedenuya. Baku,Azernesr, 1987

9. Zardabi Q.B. İzbrannıye stati i pisma. Baku, 1972

10. Qeyusev Z.B. Mirivozzreniye Q.B.Zardabi. Baku, 2018

11. Mamedzade İ. Filosofiya o sovremennosti, istorii i kulture (O konturax isteriko-kulturnoy epistemoloqii). Baku, Elm ve tehsil, 2020

12. Mamedzade İ, Qeyuşeva Z. Modern, prosvetitelskiye idei Qasanbeka Zardabi i filosofiya prosveşeniya. Baku, Teknur, 2015

**Göndərilib: 30.12.20** **Qəbul edilib: 21. 02.21**

**UOT 32**

# THE MEANING AND IMPORTANCE OF TURKEY-AZERBAIJAN RELATIONS

**Kerem Karabulut**

Prof. Dr., Ataturk University
Faculty of Economics and Administrative Sciences,
Deparment of Economics Erzurum/**TURKEY**
kerem@atauni.edu.tr
https://orcid.org/0000-0002-3159-3289

**Abstract.** Turkey and Azerbaijan are two states that have a unity of history, language, religion, race and culture and have to think about each other and act together in all their practices and purposes in the region. Looking at the development in Turkey-Azerbaijan trade, both import and export figures are increasing. This indicates that the ties between the two countries are getting stronger. The Karabakh Victory in 2020 brought the two countries even closer.

Because Turkey supported Azerbaijan with all its might during the war. Turkey's support has created great satisfaction on the Azerbaijani side. The cooperation of the two countries has driven the invading and aggressor Armenia out of Karabakh. All these developments created the beginning of a new era in the region. The future political, military, economic and social relations of Turkey and Azerbaijan, which have acted together since history, will increase.

With the opening of the Zangezur corridor, regional and world trade will be revived. Peace, tranquility, stability and economic development will be ensured in the Caucasus. With thisstudy, both the meaning and importance of Turkey-Azerbaijan relations and the effects of the Karabakh Victory are tried to be evaluated.

**Purpose:** To evaluate the Turkey-Azerbaijan relations and the effects of the Karabakh Victory within the framework of these relations.

**Methodology**: To evaluate the developments according to scientific sources and statistics.

**Scientific novelty**:Relations between Turkey and Azerbaijan could not develop during the Union of Soviet Socialist Republics (USSR). When the USSR collapsed in 1991, relations between the two countries improved. Armenia's occupation of Azerbaijani lands and its baseless claims against the two countries were weakened by the Karabakh Victory. It is important to investigate the effects of these post-victory relationships.

**Keywords:** Turkey, Azerbaijan, Turkey-Azerbaijan relations, Karabakh, Karabakh Victory, Shusha Declaration